Belə ki, Abşeron Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Hacı Əliyev ilk görüşündə erməni güləşçisi Valodya Franqulyanı 7-0 hesabı ilə məğlub edib və bununla görüşlərini davam etdirmək hüququ qazanıb.

Hacı Əliyev növbəti görüşündə də qalib gəlib. 61 kq. çəki dərəcəsində mübarizə aparan idmançımız slovakiyalı Mikola Balotnyuk üzərində daha böyük hesabla - 11:0 hesabı ilə qələbə qazanaraq yarımfinala çıxıb.

Qeyd edək ki, birincilik uğrunda mübariz aparan Hacı Əliyev indiyə qədər Dünya və Avropa çempionatlarının qalibi olub.